"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 8 avqust 2014-cü il | № 60 (1877) | Qiyməti 25 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam və Bərdə rayonlarına səfəri

## Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ağdamdakı "N" hərbi hissəsində olub





***Avqustun 6-da Azərbaycan Prezidenti İlham Əliyev Ağdam və Bərdə rayonlarına səfər edib. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev əvvəlcə Ağdamdakı "N" hərbi hissəsinə gəldi. Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi. Məlumat verildi ki, təmas xəttində yerləşən bu hərbi hissədə əsgərlərin və zabitlərin xidməti üçün hərtərəfli şərait yaradılıb. Ali Baş Komandan İlham Əliyev komanda müşahidə məntəqəsindən düşmənin mövqelərini izlədi. Sonra Prezident döyüş tapşırığını yerinə yetirərkən xüsusilə fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etdi.***

***Dövlət başçısı hərbçilərlə görüşdü və döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış etdi.***

- Bu gün təmas xəttində vəziyyətlə tanış oluram. Müdafiə Nazirliyi müntəzəm olaraq operativ məlumat verir. Vəziyyət tam nəzarət altındadır. Bizim mövqelərimiz möhkəmdir, güclüdür və təmas xəttində Azərbaycan Ordusu tam üstünlüyü əldə edib.

Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik.

Son vaxtlar həm Azərbaycanda müasir silah və texnika istehsal olunur, eyni zamanda, xarici mənbələrdən aldığımız avadanlıq, texnika, silah-sursat ən müasir standartlara cavab verir. Hava hücumuna qarşı ən müasir qurğular əldə edilibdir. Ordumuzda ən güclü artilleriya qurğuları vardır. Böyük dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar - bütün bunlar bu gün Azərbaycan Ordusunun potensialını təşkil edən amillərdir. Bu gün Azərbaycan Ordusu Dağlıq Qarabağdakı istənilən obyekti məhv edə bilər. Bunu biz də bilirik, Azərbaycan xalqı da, düşmən də bilməlidir. Bu gün ancaq Azərbaycan dövlətinin siyasəti sayəsində bölgədə sabitlik hələ ki, təmin edilir. Azərbaycan sabitləşdirici ölkədir. Biz bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda, istənilən vəzifəni icra edə bilər.

Bu gün təmas xəttində olarkən son günlər ərzində baş vermiş hadisələri də yada salırıq. Düşmən, erməni işğalçı qüvvələri bir həftə bundan əvvəl qorxaqcasına, namərdcəsinə gecə vaxtı bizim mövqelərimizə hücum etmişlər. Biz itki vermişik, əsgərlərimiz şəhid olmuşlar. Allah bütün şəhidlərə rəhmət eləsin, onların ailələrinə, yaxınlarına səbir versin. Ancaq, eyni zamanda, düşmən layiqli cavab aldı. Həmişə olduğu kimi, erməni tərəfi öz itkilərini gizlədir. Ancaq biz bilirik ki, onlarla işğalçı məhv edilmişdir və bu əməliyyatlarda xüsusi rəşadət, cəsarət, peşəkarlıq göstərən əsgər, gizir və zabitlər bu gün bu masa arxasında əyləşmişlər. Mən onları təltif etmişəm. Göstərdiyiniz cəsarətə görə, peşəkarlığa görə sizə Azərbaycan xalqı adından öz minnətdarlığımı bildirmək istəyirəm və əminəm ki, bundan sonra da bütün döyüş tapşırıqlarını ləyaqətlə icra edəcəksiniz.

Bu gün düşmən panikadadır, isterikadadır. Biz bunu bilirik. Bizim kifayət qədər imkanlarımız var ki, qarşı tərəfdə nələr baş verdiyini bilək. Biz tam şəkildə hərbi və mənəvi üstünlüyü əldə etmişik. Biz öz torpağımızdayıq. Bir həftə bundan əvvəl həlak olmuş şəhidlərimiz öz torpağında şəhid olmuşlar. Sual olunur: erməni əsgərinin - işğalçı qüvvələrin əsgərinin Ağdam ərazisində nə işi var? Bu gün Ermənistanın faşist rəhbərliyi, hərbi xunta öz ölkəsini uçuruma aparır. Onlar bizim torpaqlarımızı işğal ediblər, eyni zamanda, bütün Ermənistanı işğal ediblər. Erməni xalqı kriminal, korrupsioner rəhbərlikdən öz canını qurtarmalıdır. Əks təqdirdə Ermənistanı böyük fəlakətlər gözləyir. Əgər Ermənistan faşist dövləti öz çirkin əməllərindən əl çəkməsə, erməni dövlətinin mövcudluğu sual altına düşə bilər.

(Ardı 2-ci səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyev Latviyanın Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Latviya Respublikasının Müdafiə naziri Raymonds Veyonisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



Azərbaycan ilə Latviya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini diqqətə çatdırdı. Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə, Azərbaycan-NATO əməkdaşlığı çərçivəsində əlaqələrin müzakirəsi üçün səfərin yaxşı fürsət yaratdığını dedi.

Latviyanın Müdafiə naziri Raymonds Veyonis ölkələrimiz arasında ikitərəfli münasibətlərin davamlı inkişafının əhəmiyyətini vurğuladı. Nazir Azərbaycanın ölkəsi üçün müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə mühüm tərəfdaş olduğunu bildirdi. O, Latviyanın Azərbaycan ilə əməkdaşlığın daha da genişləndirilməsinə maraq göstərdiyini qeyd etdi.

**AzərTAc**

## Professor Akkan Suver:

## Azərbaycan torpaqlarının bir qismini işğal altında saxlamaq Ermənistana yaxşı heç nə vəd etmir

***Son günlər işğalçı dövlətin atəşkəs rejimini daha intensiv pozmasının məqsədi Azərbaycan tərəfinin davam etdirdiyi sülh danışıqlarına əngəl yaratmaqdır.***

Bu sözləri AzərTAc-a müsahibəsində Ermənistan silahlı qüvvələrinin son günlər cəbhə xəttində təxribatlarına münasibət bildirən Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Mərkəzinin baş direktoru, professor Akkan Suver deyib.

Azərbaycanın sürətli inkişafını yüksək dəyərləndirən professor Akkan Suver qeyd edib: "Ümummilli lider Heydər Əliyevin sülh və sabitliyin qorunması istiqamətində həyata keçirdiyi strategiya təkcə Azərbaycan üçün yox, bəşəriyyət üçün əhəmiyyət daşıyan irsdir. Bu strategiya xalqların dinc şəraitdə yaşamasını təmin edən idarəçilik nəzəriyyəsidir. Prezident İlham Əliyevin əzmlə davam etdirdiyi bu siyasət Azərbaycanı dünyada daha da şöhrətləndirib. Azərbaycan həm də öz təhlükəsizliyini təmin etmək üçün güclü ordu yaradıb. Təcavüzkar tərəf yaxşı anlayır ki, Azərbaycan torpaqlarının bir qismini işğal altında saxlamaq Ermənistana yaxşı heç nə vəd etmir. Dağlıq Qarabağ münaqişəsinin həllinin yeganə yolu problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə aradan qaldırılmasıdır. Ermənistan hakimiyyəti uzun illərdir ki, öz xalqını aldadıb. Ermənilər cəbhədə vəziyyəti gərginləşdirməklə Azərbaycanın bütün xalqlara dinc və sabit şəraitdə yaşamaq üçün verdiyi zəmanətə olan inamı azaltmaq istəyirlər".

# Azərbaycan Prezidenti İlham Əliyevin Ağdam və Bərdə rayonlarına səfəri

## Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ağdamdakı "N" hərbi hissəsində olub

(Əvvəli 1-ci səhifədə)

Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində baş vermiş hadisələr nəticəsində müvəqqəti olaraq torpaqlarımız işğal altına düşmüşdür. Ancaq biz öz suverenliyimizi bərpa edəcəyik. Bütün işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılacaqdır. Bu, bizim məqsədimizdir. Bu məqsədə doğru gedirik və biz bu məqsədə çatmaq üçün daha da güclü ordu yaratmalıyıq.



Bu gün ölkəmizin iqtisadi, siyasi potensialı Ermənistandan qat-qat artıqdır, üstündür. Son illər ordu quruculuğu sahəsində görülən işlər nəticəsində biz hərbi üstünlüyü də əldə etmişik və öz potensialımızı getdikcə daha da artıracağıq. Münaqişənin həlli yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Tarixi, əzəli Azərbaycan torpağıdır. Beynəlxalq hüquq normaları bizim mövqeyimizi dəstəkləyir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Biz heç vaxt Azərbaycan torpağında ikinci qondarma "erməni dövləti"nin yaradılmasına imkan verməyəcəyik, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik: ya sülh yolu ilə, ya hərbi yolla. Biz hər iki varianta hazırıq. Son həftə ərzində və ondan əvvəlki dövrdə təmas xəttində müşahidə olunan mənzərə onu deməyə əsas verir ki, biz istənilən varianta hazırıq. Necə ki, siyasi və iqtisadi meydanda ermənilərə qalib gəlmişik, döyüş meydanında da onlara qalib gəlməyə qadirik. Biz güclü hərbi potensiala malikik. Artıq bu, müxtəlif vaxtlarda nümayiş etdirilib. Hərbi təlimlərdə və paradlarda bizim texnikamız nümayiş etdirilir. Amma bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir. Son hadisələr də bunu göstərir. Hətta hərb işindən kənarda olan insanlar da öz fikirlərini, istəklərini bildirirlər, könüllü olaraq cəbhə bölgəsinə getmək istəyirlər. Bu, məni çox sevindirir və onu göstərir ki, Azərbaycanda vətənpərvərlik ruhu yüksəkdir. Mənəvi üstünlük bizim tərəfimizdədir. Ermənistandan isə son hadisələrdən sonra əhali kütləvi köçə başlamışdır. Onsuz da son illər ərzində Ermənistanı orta hesabla ildə 70-80 min vətəndaş həmişəlik tərk edirdi. Ancaq son günlər ərzində bu köç daha da güclü olmuşdur. Yəni onlar bizdən qorxurlar, panikadadırlar. Özləri etiraf edirlər ki, xarici yardım olmadan Ermənistanın müstəqilliyini saxlaya bilməzlər. Açıq şəkildə etiraf edirlər ki, xarici qüvvələrə güvənirlər. Biz isə öz xalqımıza, öz gücümüzə güvənirik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik və etməliyik. Azərbaycan xalqı öz ordusunu sevir, ona inanır, güvənir. Siz ordumuzun inkişafında böyük xidmətlər göstərmisiniz. Bizim, əlbəttə, bütün hərbi hissələrimizdə xidmət edən əsgər, gizir və zabitlər çox böyük qiymətə layiqdirlər. Ancaq sizin əməliyyatlarınızın, xüsusi təyinatlı bölmələrdə xidmət edən əsgər və zabitlərimizin xüsusi xidməti vardır. Siz hər an öz həyatınızı risk altına salırsınız, böyük qəhrəmanlıq göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və istəyirəm Azərbaycan xalqı da bilsin ki, bizim necə gözəl döyüşçülərimiz, qəhrəmanlarımız var.







Sizin gələcək fəaliyyətiniz uğurlu olacaqdır. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda yaşayırıq. Bura Azərbaycan torpağıdır. Buradan bir neçə kilometr məsafədə yerləşən Ağdam şəhəri də Azərbaycan torpağıdır, Xankəndi də, Şuşa da, bütün digər işğal edilmiş torpaqlar da. Ağdam şəhərini erməni quldurları, vəhşiləri yerlə-yeksan ediblər. Buradan Ağdam şəhərinin qalıqları açıq-aydın görünür. İki binadan başqa bütün binalar dağıdılıb. Biz Ağdam şəhərini bərpa edəcəyik. İşğal edilmiş, dağılmış bütün şəhərləri bərpa edəcəyik. Biz o torpaqlara qayıdacağıq, biz bu fikirlə yaşayırıq və yaşayacağıq. Münaqişə öz həllini tapmayana qədər daim öz prinsipial mövqeyimizi nümayiş etdirəcəyik və təmas xəttində üstünlük daim bizdə olacaqdır.

Göstərdiyiniz qəhrəmanlığa görə sizi bir daha təbrik edirəm, sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Mən hərbi hissələrdə tez-tez oluram. Təmas xəttində də, bu bölgədə də, digər mövqelərdə də olmuşam. Bir daha demək istəyirəm ki, mənə operativ məlumat verilir. Ancaq bu gün gəlmişəm ki, sizinlə birlikdə bu səngərlərdə olum, sizə öz sözümü deyim və Azərbaycan xalqını buradan əmin edim ki, Azərbaycan Ordusu Azərbaycan dövlətini qoruyur və öz məqsədinə çatacaq. Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Sizi şərəfli xidmətinizdə bir daha salamlayıram və sizə bu şərəfli işdə yeni uğurlar arzulayıram.

Mayor İmanov çıxış edərək təşəkkürünü bildirdi: Cənab Ali Baş Komandan, silahdaşlarım adından orduya göstərdiyiniz qayğıya görə Sizə təşəkkür edirik. Hər an verdiyiniz hər bir əmri yerinə yetirməyə hazırıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Mayor İMANOV:** Sağ olun. Azərbaycan Respublikasına xidmət edirəm!

* * *

Əsgər və zabitlər Ali Baş Komandan ilə xatirə şəkli çəkdirdilər.

Sonra Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev operativ müşavirə keçirdi.

Dövlət başçısına cəbhə xəttində ümumi vəziyyətlə bağlı məruzə edildi.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

# Azərbaycan Respublikasının Müdafiə naziri Latviya Respublikasının Müdafiə nazirini qəbul edib






***Avqustun 7-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Latviya Respublikasının Müdafiə naziri cənab Raymonds Veyonisi qəbul edib.***

R.Veyonisin rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda Ümumilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın məzarlarını, sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində R.Veyonisin rəsmi qarşılanma mərəsimi keçirilib. Hər iki ölkənin dövlət bayrağının dalğalandığı meydanda Latviyanın Müdafiə nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fəxri qarovulun rəisi raport verdikdən sonra Latviyanın və Azərbaycanın dövlət himnləri səsləndirilib. Rəsmi protokola uyğun olaraq qonaq Şərəf kitabını imzalayıb.

Nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq Azərbaycan ilə Latviya arasında hərbi əməkdaşlığın həm NATO-nun müxtəlif proqramları, həm də ikitərəfli əsasda həyata keçirildiyini, onun dostluq münasibətləri üzərində qurulduğunu və bu əlaqələrin daim inkişaf etdiyini qeyd edib.

Son dövrdə qoşunların təmas xəttində baş verən gərginliyə toxunan Müdafiə naziri Ermənistanın regional sabitliyə əsas təhlükə yaratdığını, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Cənab R.Veyonis öz növbəsində dövlətlərimizin əlaqələrinin mehriban dostluq münasibətlərinə əsaslandığını və Latviyanın Avropada Azərbaycanın vacib tərəfdaşı olduğunu qeyd edib.

Sonra Azərbaycan-Latviya hərbi əlaqələri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

Latviya Müdafiə nazirinin Azərbaycana səfəri avqustun 11-dək davam edəcək.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Hərbi hissədə milli qəhrəmanların xatirəsi anılıb



***Avqustun 6-da Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində milli qəhrəmanlar Zakir Məcidovun, Ruslan Polovinkanın və Cavanşir Rəhimovun xatirəsinə həsr olunmuş tədbir keçirilib.***

Müdafiə Nazirliyinin, Hərbi Hava Qüvvələrinin nümayəndələri, milli qəhrəmanların ailə üzvləri və ictimaiyyətin nümayəndələri tədbirdə iştirak ediblər.

Tədbir iştirakçıları Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi təyyarəçilərin xatirəsinə hərbi hissənin həyətində ucaldılan abidənin önünə əklil və gül dəstələri qoyublar. Ölkəmizin azadlığı və suverenliyi naminə canlarından keçmiş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini, əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani bildirib ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən Vətənin qəhrəman oğullarının yubiley və xatirə günlərinin keçirilməsi Silahlı Qüvvələrimizdə artıq ənənə halını alıb. Bu tədbirlər şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə öz müsbət təsirini göstərir.





Tədbirdə milli qəhrəmanların keçdikləri döyüş yolundan söhbət açılıb. Qeyd olunub ki, milli qəhrəmanlar Zakir Məcidov, Ruslan Polovinka və Cavanşir Rəhimov 1992-ci il avqustun 6-da Ağdərə uğrunda gedən döyüşlərdə şəxsi rəşadət və şücaət göstərərək şəhidlik zirvəsinə ucalıblar.

Milli Məclisin deputatı Xanhüseyn Kazımlı, Böyük Vətən müharibəsi veteranı, təyyarəçi Damət Nəbiyev, Azərbaycan Respublikasının Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Cəlil Xəlilov, Hərbi Hava Qüvvələri komandanının müavini Elşad Pənahov və başqaları çıxış edərək deyiblər ki, bu gün Silahlı Qüvvələrdə şəxsi heyətin milli-mənəvi dəyərlər əsasında, hərbi vətənpərvərlik ruhunda, ata-babaların qəhrəmanlıq ənənələri zəminində tərbiyə olunması, onlara yüksək əxlaqi-mənəvi, iradi keyfiyyətlər aşılanması, mənəvi-psixoloji hazırlığın yüksəldilməsi məsələlərinə xüsusi önəm verilir. Bu mənada milli qəhrəmanların şərəfli ömür yolunun gənc nəslə örnək olduğu, belə tədbirlərin gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığı vurğulanıb.

Çıxış edənlər ölkəmizdə ordu quruculuğu sahəsində görülmüş işlərdən də danışıblar.

Milli qəhrəman Cavanşir Rəhimovun qardaşı oğlu Cavanşir Rəhimov tədbir iştirakçılarına dərin təşəkkürünü bildirib.

Tədbirdə vətənpərvərlik mövzularında mahnılar səslənib.

**AzərTAc**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Bütün hava məkanı Hərbi Hava Qüvvələrimizin tam nəzarəti altındadır

***6 avqust 2014-cü il.***

Ermənistan Respublikası kütləvi informasiya vasitələrinin Dağlıq Qarabağ ərazisi üzərində guya ermənilərə məxsus hərbi təyyarələrin qoşunların təmas xətti boyunca uçuşlar keçirməsi barədə yaydığı məlumatların heç bir əsası yoxdur və bu məqsədyönlü dezinformasiya xarakteri daşıyır.

Müdafiə Nazirliyi bildirir ki, ölkəmizin bütün hava məkanı Hərbi Hava Qüvvələrimizin tam nəzarəti altındadır.

Beynəlxalq qanunlar və Beynəlxalq Mülki Aviasiya Təşkilatının qərarlarına əsasən işğal olunmuş ərazilər üzərində bütün aviauçuşlara qadağa qoyulduğundan bu ərazilərdə həyata keçirilən razılaşdırılmamış uçuşlar ölkəmizin hava sərhədlərinin pozulması kimi qiymətləndiriləcək. Hava sərhədlərimizi pozanlara qarşı zərbə endirmək üçün Azərbaycan Hərbi Hava Qüvvələri ən müasir vasitələrə malikdir. Belə hal baş verdikdə həmin hava hədəfləri Azərbaycan Respublikasının hərbi aviasiyası və hava hücumundan müdafiə sistemləri tərəfindən dərhal məhv ediləcəkdir.

* * *

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***7 avqust 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 128 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Noyemberyan rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Barekamavan, Dovex, İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Qaymaqlı, Kəmərli və Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz də atəşə məruz qalıb.

Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Sarıcalı, Kəngərli, Mərzili, Cəvahirli, Tərtər rayonunun Göyarx, Çaylı, Çiləbürt, Qızıl Oba, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Goranboy rayonunun Tapqaraqoyunlu, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və Göygöl rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

* * *

## Erməni diversantı tutulub

***7 avqust 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, bu gün saat 13.30 radələrində Tovuz rayonunun ərazisində ermənilərin kəşfiyyat-diversiya qrupu qoşunların təmas xəttini keçməyə cəhd göstərib.

Müdafiənin ön xəttində yerləşən bölmələrimizin sayıqlığı nəticəsində düşmənin bu cəhdinin qarşısı alınıb. Aşkar olunan qrup yaxın məsafəyə buraxıldıqdan sonra dəstənin zərərsizləşdirilməsi istiqamətində tədbirlərə başlanıb. İtkilər verərək geri çəkilən təxribat-diversiya qrupunun 4 üzvü məhv edilib, daha bir üzvü - Berd rayonunun Çinari kənd sakini 1989-ci il təvəllüdlü Karen Petrosyan isə əsgərlərimiz tərəfindən tutulub.

Hazırda dəstənin planı və fəaliyyətinin araşdırılması ilə əlaqədar iş aparılır.

*Əməkdaşımız ezamiyyətdən qayıdıb*

# Cəbhə bölgəsində həyat öz axarında davam edir

***Son günlər ermənilər sərhədboyu cəbhədə atəşkəsi pozaraq mövqelərimizi, sərhədyanı kəndlərimizi atəşə məruz qoyur. İgid əsgərlərimizin sayıqlığı sayəsində düşmənə sarsıdıcı cavab verilsə də bəzi kütləvi informasiya vasitələrində, həmçinin internet saytlarında müharibənin başlanması və cəbhəyə yaxın kəndlərdə əhalinin ev-eşiklərini tərk etməsi xəbərləri yer almaqdadır. Bu məqsədlə Müdafiə Nazirliyinin xətti ilə bir qrup zabit və media nümayəndələri Qazax rayonunun Ermənistanla sərhəd kəndlərində sakinlərlə görüşüb, onların mövcud durumu ilə yaxından tanış olublar.***

Qazax rayonunun mərkəzindən üzü dağlara tərəf yeni asfalt yol uzanır. Sol cinahımızda su hövzəsi, o tayda isə erməni kəndləri və mövqeləri yerləşir. Yol bizi düşmənə yaxın məsafədə yerləşən Abbasbəyli kəndinə gətirdi. Burada kənd camaatı əvvəlki tək öz təsərrüfat işləri ilə məşğul idi. Elə ilk qarşımıza çıxan 75 yaşlı el ağsaqqalı Faiq Mərdanov oldu. O həyətyanı sahəni suvarırdı.

- Ağsaqqal, deyirlər camaat kəndi tərk edib, - soruşanda o, bir qədər əsəbi dilləndi:

- Biz ev-eşiyimizi, illər uzunu çəkdiyimiz zəhməti qoyub hara gedirik? Kəndimizdə böyüklü - kiçikli hamı öz evində rahat yaşayır. Hərdən ermənilər kəndimizə güllə atırlar, bizimkilər isə cavab atəşi ilə onları dərhal susdururlar.



Faiq kişi düşmənlə üz-üzə dayanan cəsur döyüşçülərimizə inandığını deyir. Və əmindir ki, əsgərlərimiz düşmənə bir addım belə irəliləməyə imkan verməyəcək.

Biz kəndin mərkəzinə çatanda Qazax rayon İcra Hakimiyyəti başçısının müavini Tahir Musayev və başqa nümayəndələr kənd sakinləri ilə görüşüb onların qayğı və ehtiyaclarını öyrənirdilər.

Abbasbəyli kənd orta məktəbinin direktoru Günəş Əliyeva, müəllimə Təranə Umarova, sakinlərdən Tamara Namazova və başqaları ordumuzun gücünə və qüdrətinə inandıqlarını bildirdilər. Hər an dövlətimizin diqqət və qayğısı ilə əhatə olunduqlarını söylədilər.

Daha sonra Məzəm və Quşçu Ayrım kəndlərində olduq. Bu yaşayış məntəqələrinin düşmənə lap yaxın məsafədə olmasına baxmayaraq, burada da həyat öz axarında davam edir. İcra nümayəndəsi Elman Nəsibov bildirdi ki, hazırda kəndlərimizdə müasir dövrün tələblərinə cavab verən orta məktəblər tikilir. Yeni dərs ilinə qədər məktəblər istifadəyə veriləcək. İki kəndin istifadəsində olan müasir tibb məntəqəsi də təzə tikilib və tam gücü ilə fəaliyyət göstərir.

Erməni quldurlarının son günlərdə atəşkəsi pozması nəticəsində yaranan gərginliklə bağlı kənd sakini Zaur Mehdiyev söylədi ki, heç müharibənin qızğın vaxtında belə biz kəndimizi tərk etməmişik. İndi nə olub ki, evimizdən didərgin düşək? Düşmənlə üz-üzə xidmət edən ordumuzun zabiti öz ailəsi, iki balaca uşağı ilə kəndimizdə qalır. Onlar bizim xeyrimizdə, şərimizdə olur. Heç kəsin kənddən çıxmaq fikri yoxdur.



Kənd sakinlərindən Saya Vəliyevanın sözlərinə görə, onlar hər an əsgərlərimizin sayıqlığına və rəşadətinə inanırlar.

- Biz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və onun siyasi xəttinə güvənirik, - deyə kənd sakini bildirdi. - İnanırıq ki, ölkə başçısının rəhbərliyi altında qüdrətli ordumuz işğalda olan torpaqlarımızı azad edəcəkdir.

Cəbhə bölgəsində, düşmənin bir addımlığındakı kəndlərimizdə insanların dövlətə və onun rəhbərinə, həmçinin doğma ordumuza inamı böyükdür. İnam isə qələbəmizi təmin edəcək əsas amillərdən biri deyilmi?!

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Türkiyədəki Azərbaycan diaspor təşkilatları birgə bəyanat yayıblar

***Türkiyədəki Azərbaycan diaspor təşkilatları birgə bəyanat yayıblar.***

Diasporla İş üzrə Dövlət Komitəsindən AzərTAc-a verilən məlumata görə, "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" sözləri ilə başlayan bəyanatda bu günlərdə cəbhə xəttində yaşanan dəhşətli hadisələrə toxunulub, Ermənistanın işğalçı siyasəti pislənib.

Bəyanatda deyilir: "İşğalçılar bilməlidir ki, yeni "Xocalı"lar yaşanmayacaq, 1990-cı illərdə işğal etdikləri torpaqlar əsla daim onlarda qalmayacaq. Azərbaycan güclü, suveren bir dövlətdir və özünü müdafiə edəcək hərbi qüvvəyə malikdir. Azərbaycan əsgəri əsla sadə vətəndaşları hədəf almaz və uşaqlara qarşı silah istifadə etməz".

Həmçinin bildirilir ki, nəinki sülhü qorumaq, atəşkəsə riayət etmək iqtidarında olmayan, müharibəni, qətliamı dəstəkləyən bir rəhbərlik heç vaxt sərhədlərin açılmasını tələb edə bilməz.

Bəyanatda erməni xalqına onları sonu görünməyən bir tunelin içinə sürükləyən faşist, irqçi, daşnak rəhbərlikdən xilas olmaq tövsiyə edilir. Bildirilir ki, Qafqazda sülhün qarşısında ən böyük maneə bu daşnak rəhbərliyidir.

Bəyanat Türkiyə - Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının üzvləri - İstanbul Azərbaycan ilə Həmrəylik Dərnəyi, Ankara Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyi, Muğla Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyi, Manisa Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyi, Yalova Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyi, Qars Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyi, Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəkləri, İğdır Azərbaycan Evi Dərnəyi, Beynəlxalq Azərbaycan Mədəniyyət Dil-Tarix Araşdırma Mərkəzi və Kuşadası Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyi tərəfindən imzalanıb.

# Döyüşə səsləyən sətirlər

*Son vaxtlar cəbhə xəttində erməni hərbi birləşmələrinin kəşfiyyat-diversiya qruplarının hücumlarının qarşısının alınmasında Azərbaycan Ordusunun əsgər və zabitləri əsl qəhrəmanlıq və rəşadət nümunələri göstərərək Vətənə, xalqa və dövlətə sədaqətli olduqlarını bir daha sübuta yetirdilər. İtkilərimiz də oldu, amma xalq öz qəhrəman övladlarının dəfnində başını dik tutaraq dost-düşmən qarşısında əyilməzliyini və qürurunu büruzə verdi.*

*Vətən oğullarının düşmənə layiqli cavab verməsi bir daha ölkə ictimaiyyətində qələbəmizə əminlik yaratdı. Müxtəlif şəhər və kəndlərimizdə şəhidlərimizin dəfn mərasimlərində əsl xalq izdihamı yaşandı. Sadə bir peşə sahibindən dövlət məmuruna kimi - hər kəs bu mərasimlərdə yaxından iştirak edərək şəhidlərimizin ruhuna öz ehtiramını ifadə etdi. Hər bir şəhid ata-anası, bacı-qardaşı, şəhidlərimizin ömür-gün yoldaşları və övladları bu ağrıya acısa da, dərin kədərlərini büruzə vermədilər, əksinə, başlarını dik tutaraq "təki Vətənim yaşasın!", - dedilər.*

*Əli qələm tutan yaradıcı insanlarımız da bu günlərdə öz poetik duyğularını oxucuları ilə bölüşdülər. Qəzetimizin bu sayında ədəbi ictimaiyyətimizə yaxından tanış olan iki şairimizin - Ramiz Duyğunun və Ramazan Səməroğlunun vətənpərvərlik ruhlu, döyüşə və qələbəyə səsləyən bir neçə şerini oxucularımıza təqdim edirik.*

**"Azərbaycan Ordusu"**

***Ramiz DUYĞUN***

## Qaldır, şəhid tabutunu
(elegiya)

Qaldır, şəhid tabutunu
Ulu tanrı dərgahına.
Qaldır, şəhid tabutunu
Millətimin sabahına.

Qaldır, şəhid tabutunu
Vətən, torpaq, qan adında.
Qaldır, şəhid tabutunu
Mələklərin qanadında.

Bürü, şəhid tabutunu
Ay-ulduzlu bayrağına.
Döndər, şəhid tabutunu
Gözlərinin çırağına.

Bu çırağın işığında
Millət görsün
Zəfər adlı düyününü
Bu çırağın ağ nurunda
Millət yusun göz yaşını,
Naləsini, öz ününü...

Qaldır, şəhid tabutunu
Qanı tanrı qanındadır
Qaldır, şəhid tabutunu
Yeri - Allah yanındadır.

Qəddar yağı gülləsindən
Sına bilməz,
Onun şüşə qəlb aynası
Qan ağlayıb, yaş tökməsin
Mərd şəhidin, mərd anası.

Gözlərində günəş gülsün
Nakam şəhid sonasının.
Qoy dağları silkələsin,
Qəh-qəhəsi
İgid şəhid anasının.

Diqqət elə, qulaq kəsil
Bu sözlərin mənasına:
Göz yaşları yaraşmayır
Şəhidlərin anasına.

Qaldır şəhid tabutunu
Buludların altına,
Qaldır şəhid tabutunu
Göyün yeddi qatına.

Ölməzliyin, şəhidliyin
Dan yeridir, qızıl kürsün.
Qaldır, şəhid tabutunu
Bu kürsüyə dünya görsün.

Çox dərindir yara yeri,
Yaramız çox göynəyəcək.
Şəhid ölümdən güclüdür,
Ölüm ona neyləyəcək.

Qolumuza qüvvət verir,
Yolumuza qüvvət verir,
Anaların həyəcanı
Qələbəyə yaraşıqdır,
Al bəzəkdir şəhid qanı.

Qaldır, şəhid tabutunu
Göy tağına.
Buludların ağuşuna,
Mələklərin qucağına.

Şəhidlərin tabutunu
Ulu göylər qucaqlasın.
Anaların əvəzinə,
Gəlinlərin əvəzinə.
Qoy mələklər ağlasın,
Ulu göylər ağlasın...

***Ramazan SƏMƏROĞLU***

## Ağlama, şəhid anası

Gözyaşın dünyanı qəmə bələdi,
Sən Allah, ağlama, şəhid anası.
Oğlun "şəhid olsam ağla" demədi,
Sən Allah, ağlama, şəhid anası.

Türkün anasına ağlamaq yasaq,
Biz ki, türk olmazdıq dərdə ağlasaq.
Vətən yaşamaz ki, şəhid olmasaq,
Sən Allah, ağlama, şəhid anası.

Hələ gediləsi çox yolumuz var,
Bizə yol göstərir zirvəli dağlar.
Türkün anasını kim görüb ağlar?!
Sən Allah, ağlama, şəhid anası.

Oğul itkisinə dözmək çox çətin,
Düşmənə ölümdür kinin, nifrətin.
Anası ağlamaz böyük millətin,
Sən Allah, ağlama, şəhid anası.

Yurdu qorumağa gedən sağ olsun,
"Oğlum əsgər getsin", dedin "sağ olsun".
Bir təsəllin var Vətən sağ olsun,
Sən Allah, ağlama, şəhid anası!

## İrəli, igid əsgər

Döyüşməyə hazır ol,
İrəli, igid əsgər.
Düşmənindən qisas al,
İrəli, igid əsgər.

Allahdır sənə həyan,
Günəşdən qabaq oyan.
Səngərdə məğrur dayan,
İrəli, igid əsgər.

Bu yurdun qeydinə qal,
Dünyanı lərzəyə sal.
Döyüşlərdə zəfər çal,
İrəli, igid əsgər.

Qeyrətin cuşa gəlsin,
Dağlar sənə baş əysin.
Güllən hədəfə dəysin,
İrəli, igid əsgər.

Vətənində gül bitir,
Hər yandan gəlsin ətir.
Vətənə sevinc gətir,
İrəli, igid əsgər!

## Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# Səfərbərlik işi təkmilləşdirilir

***Bu günlərdə "N" hərbi hissəsinin taktiki təlim bazasında şərti səfərbərlik elan olundu. Bu zaman səyyar tipli şəxsi heyətin qəbul məntəqəsi yaradıldı və dinləyici zabitlərə ehtiyatdan gələn hərbi qulluqçuların siyahılara uyğun vəzifələrə təyinedilmə qaydaları izah edildi.***



Məşğələnin rəhbəri, Müdafiə Nazirliyinin məsul zabiti polkovnik Elçin Daşpoladov bildirdi ki, bu cür təlimlərin keçirilməsi çox vacibdir. Çünki, ölkəmiz müharibə şəraitindədir. İstənilən an hərbi əməliyyatlar başlaya bilər. Səfərbərlik elan olunduqda isə döyüşən hərbi hissələrdə səhra tipli şəxsi heyətin qəbul məntəqələri yaradılır. Təlimin də əsas məqsədi döyüşən hərbi hissəni komplektləşdirməkdir.

Zabit E.Daşpoladov onu da əlavə etdi ki, Silahlı Qüvvələrin növləri, qoşun qismləri, birlik, birləşmə və hərbi hissələrin səfərbərlik işinə cavabdeh şəxsləri ilə şəxsi heyətin qəbul məntəqəsinin təşkili üzrə nümunəvi məşğələ ilk dəfədir ki, keçirilir. Bu cür məntəqələrin bütün hərbi hissələrdə yaradılması vacibdir. Əslində bu ənənənin əsası çoxdan qoyulsa da, nədənsə bu vaxta kimi belə təlim-məşqlər keçirilməyib. Bu sahəyə cavabdeh zabitlərlə keçirilən toplantı onların şəxsi heyətin qəbul edilməsi işi ilə bağlı vərdişlərini artıracaqdır.

Səhra toplama məntəqəsində yaradılan dozimetrik nəzarət postu döyüş vaxtı düşmənin kütləvi qırğın silahından istifadəsini yoxlamaq məqsədi daşıyır. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndəsi səfərbər olunan zabit, gizir, çavuş və əsgərləri ilk olaraq bu posta təqdim edir. İlk postdan keçdikdən sonra onlar növbəti komandaların qəbul bölməsinə təqdim olunurlar. SHXÇDX-nin əməkdaşı hərbi vəzifəliləri siyahı əsasında adbaad yoxlayıb hərbi hissənin nümayəndəsinə təhvil verir.



Dərsin gedişində səfərbərlik işinə cavabdeh zabit polkovnik-leytenant Vaqif Abdullayev dedi ki, xəstəliyi və şikayəti olanlar diqqətlə dinlənilir və onlara lazımi tibbi - hüquqi yardım göstərilir. Səhhətlərində qüsur aşkar olunanlar isə təkrar tibbi komissiyaya göndərilir.Siyahıyaalma başa çatandan sonra səfərbər olunanlar hərbi geyimlə təmin olunurlar. Daha sonra onlar vəzifələrə uyğun bölünərək xidmət yerlərinə göndərilir.

Bir daha xatırlatmaq istərdim ki, bu cür qəbul məntəqələrinin hərbi hissələrdə yaradılması günümüzün reallığıdır. Çünki ərazisinin iyirmi faizi düşmən tərəfindən işğal olunmuş bir ölkədə səyyar tipli şəxsi heyətin qəbul məntəqələrinin yaradılması və bu sahədə aparılan yeniliklər təqdirəlayiqdir.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

## Xarici hərbi xronika

### Beynəlxalq silah bazarı artmaqdadır

Rusiya ABŞ-dan sonra ikinci yeri tutmaqla dünyanın beş iri silah tədarükçüləri sırasındadır. Bu haqda dünya problemlərinin öyrənilməsi üzrə Stokholm Beynəlxalq İnstitutunun jurnalında məlumat verilib. Məlumata əsasən, 2008-2012-ci illərdə iri silah tədarükçüləri olan ABŞ, Rusiya, Almaniya, Fransa və Çin əsas silah növləri ixrac ediblər. Həmin dövrdə ən güclü silah ixrac edən ölkə Amerika Birləşmiş Ştatları olub. Rusiya isə həmin illərdə dünya bazarında 26-cı yeri tutub. Bu ölkə silahların 65 faizini Asiyaya, Okeaniyaya, Afrika və Yaxın Şərqə ixrac edib.

RF-nın xarici ölkələrlə əməkdaşlığı məsələləri üzrə komissiyanın iclasında Rusiya Prezidenti Vladimir Putin xarici ölkələrə silah və döyüş texnikasının ixracının 50 milyard dollara qədər artırıldığını bildirib.

### "Aviadarts-2014" müsabiqəsi

Rusiyanın Voronej ərazisində "ən yaxşı uçuş heyəti" adı uğrunda beynəlxalq "Aviadarts-2014" müsabiqəsi keçirilib. Müsabiqədə Hərbi Hava Qüvvələrinə məxsus aviasiyanın müxtəlif növləri daxil olmaqla 33 heyət, Hərbi Dəniz Donanması aviasiyasının tərkibindən bir heyət, xarici dövlətlərin Hərbi Hava Qüvvələrindən isə dörd heyət iştirak edib. Müsabiqənin keçirilməsinin əsas məqsədi "ən yaxşı uçuş heyəti" adına layiq olanları seçmək və onların döyüş hazırlığını qiymətləndirməkdir. Hərbi Hava Qüvvələrinin Komandanlığından bildirilib ki, "Aviadarts-2014" müsabiqəsi heyətin taktiki və uçuş hazırlığı səviyyəsini real qiymətləndirməyə imkan verəcək və müsabiqə zamanı onların çətin taktiki şəraitdə döyüş tapşırıqlarının yerinə yetirilməsinə necə hazır olduqları bilinəcək.

Müsabiqənin keçirildiyi təlim mərkəzində 50-dən çox hədəf quraşdırılıb. 20-ə qədər planker-qırıcıları, 10-dan çox avtomobil texnikası yerləşdirilib. Bundan başqa müsabiqə zamanı müxtəlif təyinatlı qırıcılar, təyyarə və vertolyotlar, bombardmançılar və s. hərbi texnikalardan da istifadə edilib.

### Orsis T-5000 snayper tüfəngi

"Sənaye texnologiyası" şirkəti istehsal etdiyi yüksək dəqiqli Orsis T-5000 snayper tüfəngini təqdim edib. İlk dəfə bu tüfəng 2011-ci ildə Nijni Tagildə keçirilən "Rusian Expo Arms" silah sərgisində nümayiş etdirilib. 2012-ci ildə polis və hərbçi snayperlərin 11-ci çempionatında istifadə edilib. Bu silahla müxtəlif məsafələrdən atəş açmaq olar.

### "Strela-10" zenit-raket kompleksi

Yaxın məsafəli "Strela-10" zenit-raket kompleksi 1976-cı ildə Rusiya Silahlı Qüvvələrinin tərkibinə daxil edilib. Dəfələrlə miodernləşdirilib ("Strela -10M", "Strela-10M2", "Strela-10M3", "Strela -10M4") . İstifadədə bu kompleks sadə, yüksək davamlı və effektlidir. Hazırda Rusiya Quru qoşunlarının tərkibində 400-ə qədər "Strela-10" kompleksi vardır. 50-si isə HDQ-nin dəniz piyadalarının silahlanmasındadır.

### Banqladeş AW-139 vertolyotları alacaq

"AqustaUastlend şirkəti Banqladeşin Müdafiə Nazirliyi ilə iki ədəd iki mühərrikli AW-139 vertolyotlarının verilməsinə imza atdığını elan edib. Vertolyotların Banqladeşin Hərbi Hava Qüvvələrinə 2015-ci ilin sonunda veriləcəyi planlaşdırılıb. Maşınlar dənizdə xilasetmə-axtarış əməliyyatlarını və digər tapşırıqları yerinə yetirəcək. Vertolyotlar bu məqsədlə müasir cihazlanma ilə təchiz olunacaq. Həmçinin bu cihazlanmaya teplovizion sistem, meteo-axtarış radiolokasiya sistemi, axtarış aparmaq üçün projektor, xilasetmə zamanı qaldırıcı sistem və üzgüçülüyü təmin edən sistem də daxil ediləcək. Bu texnikanın alınması Banqladeş HHQ-nə mürəkkəb hava şəraitində xilasetmə-axtarış əməliyyatlarını aparmağa imkan verəcək.

### Hindistan hökuməti hərbi texnikanın alınması təklifini bəyənib

Hindistanın yeni hökuməti 3,5 milyard dollar həcmində silah və hərbi texnikanın alınması təklifini bəyənib. Burada hərbi nəqliyyat təyyarələrinin tədarükü məsələsi də təklif olunub. Bu layihəni Hindistanın yerli şirkətləri həyata keçirəcək. Başda Müdafiə naziri Arun Djeytli olmaqla Hindistan hökumətinin müdafiə tədarükü üzrə şurası proqram üzrə donanma gəmilərini döyüş sursatları, maddi-texniki vasitələr və ehtiyat hissələri ilə təmin etmək üçün 5 ədəd FSS təchizat gəmisinin alınmasına razılıq verib. Bu layihənin həyata keçirilməsinə 1,49 milyard dollar xərclənəcək, Bundan başqa yerli "Xindustan aeronotiks limited" şirkəti tərəfindən hazırlanmış, ümumi qiyməti 1,16 milyard dollar həcmində 32 ədəd "Dxruv" vertolyotunun, 16 ədəd maşının sahil mühafizə xidmətinə və hərbi dəniz qüvvələrinə verilməsi də nəzərdə tutulub.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

## Türkiyə ordu generalı:
## Ehtiyatda olan türkiyəli hərbçilər Azərbaycan xalqı ilə hər zaman həmrəydir

Ermənistan silahlı qüvvələrinin son günlər Ermənistan-Azərbaycan dövlət sərhədi və qoşunların təmas xəttinin müxtəlif istiqamətlərində atəşkəs rejimini pozaraq Silahlı Qüvvələrimizin mövqelərinə basqınına etiraz edən Türkiyə ictimaiyyətinin nümayəndələri xalqımızla həmrəyliklərini müxtəlif formalarda davam etdirirlər.

Türkiyənin ehtiyatda olan ordu general-mayoru Necdet Timur AzərTAc-a müsahibəsində son illər Azərbaycan Silahlı Qüvvələrinin keçdiyi inkişaf yolundan qürur duyduğunu bildirərək qeyd edib ki, Azərbaycan Ordusu yüksək peşəkarlığa və mənəvi-psixoloji üstünlüyə malikdir.

"Azərbaycan müasir modernləşmiş, hərtərəfli təchizata malik qüdrətli orduya malikdir. Lakin təcavüzkar Ermənistan dövləti Azərbaycanın sülhməramlı siyasətindən öz çirkin məqsədləri üçün istifadəsini davam etdirir. İşğalçı tərəf anlamalıdır ki, Azərbaycan xalqı heç zaman öz torpaqlarının itirilməsi ilə barışmayacaq. Azərbaycan Ordusu işğal altındakı torpaqlarını azad etməyə qadirdir və Türkiyə ictimaiyyətinin bütün təbəqələri, o cümlədən ehtiyatda olan hərbçilər hər zaman Azərbaycan xalqı ilə həmrəydir".

## Ermənistan münaqişənin eskalasiyası və ərazinin zəbt edilməsi siyasətindən imtina etməlidir

İsveçin Azərbaycan diasporu atəşkəs rejiminin Ermənistan Silahlı Qüvvələri tərəfindən pozulması faktları ilə bağlı bu ölkənin parlamentinə məktub göndərib.

AzərTAc xəbər verir ki, İsveç Azərbaycanlıları Federasiyasının məktubunda bu yaxınlarda atəşkəs rejiminin Ermənistan tərəfindən pozulması faktları ilə bağlı narahatlıq ifadə olunub. Məktubda deyilir ki, erməni qoşunları iyulun 31-dən başlayaraq Azərbaycan qoşunlarının mövqelərinə hücuma keçiblər. Nəticədə Azərbaycan Milli Ordusunun ondan çox hərbi qulluqçusu həlak olub. Buna baxmayaraq, Azərbaycan münaqişənin sülh yolu ilə həllinə tərəfdardır. Ermənistan tərəfi isə Azərbaycanın Qarabağ regionunun işğalı siyasətini davam etdirir, habelə münaqişənin eskalasiyasına cəhdlər edir.

İsveç Azərbaycanlıları Federasiyası onu da vurğulayır ki, İsveç ATƏT-in Minsk qrupunun daimi üzvü kimi daha sərt mövqedən çıxış etməli, Ermənistanın münaqişənin eskalasiyası və işğalçılıq siyasətindən imtina etməsi üçün bu ölkənin rəhbərliyinə təzyiq göstərməlidir.





# Hərb tarixi muzeyinə ekskursiya

***Bu günlərdə "N" hərbi hissəsinin bir qrup əsgəri Azərbaycanın Hərbi Tarixi Muzeyində olub.***

Mayor Elxan Nəsirovun rəhbərlik etdiyi şəxsi heyəti muzeyin rəisi ehtiyatda olan polkovnik Sahib Qarayev qarşılayıb. O, hərb tariximizin öyrənilməsi üçün dəyərli vəsait və eksponatlarla zəngin olan muzeyin yaranması və fəaliyyəti barədə ətraflı məlumat verib.



Sonra muzeyin işçiləri müxtəlif bölmələrdə qorunub saxlanan eksponatlar barədə əsgərlərə söhbət açaraq Azərbaycan xalqının zəngin hərbi ənənələrindən, milli ordumuzun yaranmasından və inkişaf yolundan danışıblar.

Mayor E. Nəsirov əməkdaşımızla söhbətində qeyd edib ki, hərbi bölmələrdə xidmət edən nümunəvi əsgərlərin istirahət günlərində qrup halında şəhərin görməli yerləri, tarixi abidələrimizlə tanışlığı artıq ənənəyə çevrilib.

Ötən həftə isə bu hərbi hissənin əsgərləri Bakının rayonlarından birində Heydər Əliyev Mərkəzində olublar və ümummilli liderimizin şərəfli ömür yolu və tarixi fəaliyyətinin müxtəlif dövrləri ilə yaxından tanış olublar.

Hərbi hissədə şəxsi heyətin təlim-tərbiyəsinə cavabdehlik daşıyan zabitə görə, belə maraqlı gəzintilərin və ekskursiyaların keçirilməsi həm əsgərlərin dünyagörüşünün formalaşması, həm də onların asudə vaxtlarının səmərəli təşkil edilməsi baxımından əhəmiyyətlidir.

**"Azərbaycan Ordusu"**

Müddətdən artıq xidmət edən hərbi qulluqçu Mamedov Vüqar Şəhmir oğluna 2013-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 259
Nüsxə 4570